# Azərbaycan idmançılarının uğurları davam edir

**Azərbaycanın 7 şəhərində (Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi) keçirilən III MDB Oyunları davam edir. Dünən 16 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Qəbələ şəhər stadionunda ikinci oyununa çıxıb. Qırğızıstan millisi ilə qarşılaşma Azərbaycan komandasının 4:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, A qrupunda yarışan futbolçularımız 6 xalla lider olub və oktyabrın 4-də kecirilәcək final matçına vəsiqə qazanıb.**





















Komandanın baş məşqçisi Aqil Nəbiyev görüşdən sonra jurnalistlərə açıqlamasında deyib: "Qarşılaşma çətin keçdi. Oyunun ağır, rəqibin aqressiv olacağını bilirdik. İki fərqli hissə izlədik. İkinci hissədə daha çox top saxladıq. Finala vəsiqə qazandıq. Fürsətlərdən istifadə etsəydik, hesab daha böyük ola bilərdi. AFFA rəhbərliyi yanımızdadı. İnanıram ki, finalda da yanımızda olacaq. Həmçinin azarkeşlərlə bağlı da eyni sözləri deyərdim. Artıq komanda kimi formalaşmışıq. Aramızda koordinasiya var. Son oyunlarda qələbələr ard-arda gəlir. İnanıram ki, kuboku birlikdə götürəcəyik".

Azərbaycanın U-16 millisinin futbolçusu, iki qolun müəllifi olan Əli Bəşirov III MDB Oyunlarının final matçına daha yaxşı hazırlaşmalı olduqlarını bildirib: "Üç xalı qazandığımız üçün çox sevincliyik. Finala vəsiqə qazandıq. Bundan sonra həlledici matça daha yaxşı hazırlaşmalıyıq".

Gəncə İdman Sarayında üzgüçülük yarışları davam edir. Dünən keçirilən 800 metr məsafəyə sərbəst üsulla üzməkdə azərbaycanlı üzgüçü Süleyman İsmayılzadə ikinci yeri tutaraq gümüş medal əldə edib. Rusiyalı Aleksandr Filipets qızıl, onun həmyerlisi Boqdan Toropkin bürünc mükafata sahibləniblər.

Dünən Qəbələdə yarışın son günündə Azərbaycan atıcıları daha iki gümüş medal qazanıblar. Nərmin Cəfərli və Mürtəza Novruzlu stend atıcılığının "trap" növündə ikinci olublar. Mürtəza Novruzlunun finaldakı rəqibi çox güclü idi. Bunu idmançı final matçından sonra deyib: "Finaldakı rəqibim çox güclü idi. Qızıl medala yaxınlaşsam da, gümüş nəsib oldu".

Bir gün əvvəl isə dairəvi stend atıcısı Cavid Həsənov uğurla çıxış edərək gümüş medal qazanıb. Rusiyalı German Telenin qızıl medala sahiblənib, qazaxıstanlı Ratmir Yenikeyev isə üçüncü olub. İdmançımız turnirdə çıxışı barədə təəssüratlarını bölüşüb: "Hər bir idmançı kimi, mənim üçün də bu yarışda mübarizə aparmaq böyük bir qürur idi. Final mərhələsinə yüksəldim və gümüş medal əldə etdim. Qızıl medal çox yaxın idi, amma alınmadı. İnanıram ki, gələcək yarışlarda bu nəticəni də əldə edəcəyəm". Yarışın təşkilatçılığına da toxunan idmançı, tədbirin yüksək səviyyədə keçdiyini və azarkeşlərin dəstəyinin ona əlavə motivasiya verdiyini vurğulayıb: "Təşkilatçılıq çox yüksək səviyyədə idi. Azarkeşlər bizə böyük dəstək göstərdilər və bu da mənə əlavə stimul verdi. Yarışda əməyi keçən hər kəsə təşəkkür edirəm". Final mərhələsinin dinamik və maraqlı keçdiyini bildirən Cavid Həsənov rəqiblərin güclü olduğunu xüsusi qeyd edib: "Rəqiblər layiqincə mübarizə apardılar. Onların heç biri zəif deyildi, buna görə də final olduqca maraqlı keçdi".

Beləliklə, Azərbaycan atıcıları III MDB oyunlarını 9 medalla (5 gümüş, 4 bürünc) başa vurublar.

Həmin gün Mingəçevirdə keçirilmiş taekvondo yarışlarında 68 kiloqram çəki dərəcəsində qızıl medal qazanan Azərbaycan təmsilçisi Vasif Səlimov bu nəticəyə görə xoşbəxt olduğunu bildirib: "Azərbaycan bayrağını zirvəyə qaldırmaq böyük qürurdur. Bura qızıl medal üçün gəlmişdim. Məqsədimə çatdım. Üzərimdə əziyyəti olan hər kəsə təşəkkür edirəm. Gələcək hədəfim 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarında qalib olmaqdır".

Dünən Qəbələ Olimpiya İdman Kompleksində badminton üzrə komanda yarışlarına start verilib. İlk günün nəticələrinə əsasən, Ülvi Hüseynov, Leyla Camalzadə, Əli Gözəlov, Əmirxan İmanov, Nəzrin Mehrəlizadə və Yağmur Quliyevadan ibarət əsas komandamız A qrupunda ikinci yer tutaraq yarımfinala adlayıb. Qrupu ikinci sırada başa vuran əsas komandamız yarımfinalda B qrupunun lideri ilə qarşılaşacaq.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*
*Qəbələ-Naftalan*